№ 227.- S.9.
18 oktyabr 2023-cü il, çərşənbə
Xalq qəzeti

# Uzaq Saxada “Böyük qar alqışı”

## Həmyerlimiz Turan soraqlı şeir-sənət bayramında

**Tanınmış Azərbaycanı şairi Ramiz Qusarçaylı Saxa Respublikasında “Böyük qar alqışı” adlı VII Beynəlxalq Poeziya Festivalında ölkəmizi layiqincə təmsil edib.**

Ənənəvi festivalın başlıca məqsədi Şərqi Sibirin bu türk diyarı ilə MDB məkanı xalqlarının yazarlarının arasında əlaqələrin genişləndirilməsidir. Festivala, əsasən, saxa xalqının ədəbiyyatına maraq göstərən, bu sahədə yaradıcılıq planları olan şairlər və tərcüməçilər dəvət olunurlar. Həmin günlərdə çağdaş poeziya və tərcümə problemlərinə həsr olunan dəyirmi masalar təşkil edilir.





XQ-yə müsahibəsində Ramiz Qusarçaylı bildirib ki, gözümüzdən uzaq olsa da, ruhumuza çox yaxın olan, qədim türk diyarı Saxada bu festival iki ildən bir keçirilir: “Budəfəki poeziya bayramında yerli şairlərlə bərabər, Moskva, Mahaçqala, Arxangelsk, Ufa, Kazan, Astana və Bişkekdən də şair və tərcüməçilər gəlmişdilər. Bizi hava limanında Saxa Yazıçılar Birliyinin sədri Qavril Androsov və milli libaslı iki gənc əllərində duz-çörək və kumıs dolu çoronla qarşıladılar”.

Müsahibimiz sonra respublikanın rəhbəri Aysen Nikolayevin qonaqları qəbul etdiyini bildirərək dedi ki, həmin görüşdə festivalın ideya müəllifi, yerli Yazıçılar Birliyinin fəxri sədri, Xalq şairi, RSFSR-in Əməkdar mədəniyyət xadimi Natalya Xarlampiyeva da iştirak edirdi: “Mən qəbulda çıxış edərək, xalqımızın adət-ənənələri, ədəbiyyatımız və öz yaradıcılığım barədə məlumat verdim. Saxa rəhbərinə 44 günlük Vətən müharibəsində qələbəmizi, eləcə də milli xalçalarımız və Quba alması təcəssüm etdirən buklet və suvenirlər bağışladım. O, bizim qələbə sevincimizə şərik olduğunu bildirdi və xalqımıza səmimi salamlarını çatdırmağı xahiş etdi”.

M.K.Ammosov adına Şimal-Şərq Federal Universitetində keçirilən festivalın açılış mərasimində Ramiz Qusarçaylının rus və saxa dillərinə tərcümə olunmuş şeirləri ali təhsil ocağı tələbələrinin ifasında səslənib və alqışlarla qarşılanıb.

Xatırladaq ki, festivalın adı Xalq şairi Semyon Danilovun bir şeirindən götürülüb. Onun və nasir qardaşı Safron Danilovlun abidələrinin, eləcə də doğulduqları kənddəki ev-muzeyinin ziyarəti xüsusilə yaddaqalan olub. Saxa Media Holdinqdə yerli jurnalistlərlə, Yakutsk şəhərindəki iki orta məktəbdə şagirdlərlə və Berdiqestyaxda Semyon Danilovun adını daşıyan Mənəviyyat mərkəzində şəhər ictimaiyyəti ilə keçirilən görüşlər, Yakutsk–Qornıy Ulus yolunda yerləşən Şaman ocağına, rəmzi Los (Maral) heykəlinin qoyulduğu yerə səfərlər də qonaqlara unudulmaz təsir bağışlayıb.

“Festivalın rəsmi bağlanış tədbirində Saxanın Mədəniyyət və Mənəvi İnkişaf naziri Afanasi Noyev məni Azərbaycan və Saxa respublikaları arasındakı yaradıcı xidmətlərimə görə fəxri fərmanla təltif etdi. Saxa Yazıçılar Birliyinin rəhbərliyinin isə fəxri diplomuna və qiymətli hədiyyələrinə layiq görüldüm”, – deyən Ramiz Qusarçaylı sonda bildirdi ki, Poeziya festivalında yerli mədəniyyət xadimlərinin, sənət ustalarının çıxışları bir daha Türk dünyasının mənəvi saflığından, Turan ruhunun böyüklüyündən soraq verirdi. Bütün bunlar, heç şübhəsiz, yeni yazılacaq ədəbi nümunələrdə öz əksini tapacaq.

***Ə.DOSTƏLİ***
***XQ***